# Xalqın güvəndiyi, etimad etdiyi Lider



*Ölkənin müasir inkişaf mərhələsində Prezident İlham Əliyevin həyata keçirdiyi strateji kurs Azərbaycanın tarixində yeni siyasi və dövlətçilik mərhələsinin əsasını qoyub. Müstəqilliyin qorunması və möhkəmləndirilməsi, ərazi bütövlüyünün tam bərpası, regional və qlobal güc mərkəzləri qarşısında milli maraqların qətiyyətlə müdafiə olunması liderliyin başlıca göstəricilərindəndir.*

Qayıdış konsepsiyası əsasında işğaldan azad edilmiş ərazilərdə icra olunan bərpa və yenidənqurma proqramları, hərbi quruculuğun yeni mərhələyə keçidi, milli təhlükəsizlik sisteminin institusional səviyyədə gücləndirilməsi müstəqil Azərbaycanın suveren və dayanıqlı gələcəyini təmin edən fundamental sütunlara çevrilib. Bu siyasət postmünaqişə dövrünün strateji idarəçiliyinin nümunəsi kimi qəbul olunur.

Prezident İlham Əliyev müasir dövrün nadir siyasi liderlərindəndir ki, həm milli kimliyin daşıyıcısı, həm də qlobal miqyasda mühüm strateji həmlələrin müəllifidir. Ölkə başçısının liderliyində dövlətçilik tarixi məsuliyyət, milli yaddaş və gələcək nəsillərə ötürüləcək güclü iradə simvoluna çevrilib. Cənab İlham Əliyev Azərbaycanı ərazi bütövlüyünə qovuşduran Ali Baş Komandan olmaqla bərabər, həm də postmünaqişə dövrünün intellektual siyasi memarıdır. Prezidentin xarici siyasəti isə balanslı yanaşma, prinsipial mövqe və milli maraqların diplomatik üstünlük müstəvisində qorunmasının real modelinə əsaslanıb. Bu liderlik Azərbaycanın həm indiki, həm də gələcək qlobal çəkisini müəyyən edən strateji irsdir.

**(davamı 15-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin fəaliyyəti ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Sosial Tədqiqatlar Mərkəzinin (STM) 2025-ci ilin ilk altı ayını əhatə edən rəy sorğusunun nəticələri bunu bir daha sübut edir. Sorğu Prezidentin genişmiqyaslı fəaliyyətinin müxtəlif istiqamətləri üzrə vətəndaşların münasibətini öyrənmək məqsədi daşıyıb və ölkənin sosial-siyasi nəbzini əks etdirən mühüm indikatorları əks etdirir. Sorğular 7 şəhər, 34 rayon olmaqla ümumilikdə ölkənin 41 rayon və şəhərində keçirilib. Rəy sorğusunun nəticələrinə görə, xüsusilə Böyük Qayıdış və bərpa-quruculuq sahəsində Prezidentin fəaliyyəti xalqın böyük əksəriyyəti tərəfindən birmənalı şəkildə dəstəklənib. Respondentlərin 69,6 faizi bu sahədəki fəaliyyəti "çox yaxşı", 24,6 faizi isə "əsasən yaxşı" olaraq qiymətləndirib. Tədqiqat göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən infrastruktur layihələri, bərpa prosesi, yenidən məskunlaşma və "Böyük Qayıdış" proqramı ictimai rəyin formalaşmasında əsas həlqəyə çevrilib. Prezidentin bu istiqamətdəki ardıcıl səyləri milli kimliyin, tarixi ədalətin və vətəndaş məmnuniyyətinin bərpası kimi qiymətləndirilir.

STM sorğusunun digər vacib nəticələrindən biri də hərbi quruculuq sahəsində Prezident İlham Əliyevin fəaliyyətinə olan geniş ictimai etimaddır. Respondentlərin 69,4 faizi bu sahədə fəaliyyəti "çox yaxşı", 22,7 faizi isə "əsasən yaxşı" kimi qiymətləndirib. Bu nəticələr onu göstərir ki, Azərbaycan cəmiyyətində ordu quruculuğuna və milli təhlükəsizliyə münasibət strateji önəm daşıyır. 44 günlük Vətən müharibəsindən sonra formalaşmış yeni geosiyasi reallıqlar fonunda ordunun modernləşdirilməsi, hərbi sənaye kompleksinin inkişafı və təhlükəsizlik infrastrukturunun gücləndirilməsi ictimai rəydə sabitlik və güvənlik simvolu kimi qəbul olunur.

Sorğu nəticələri Prezidentin milli təhlükəsizlik sahəsindəki fəaliyyətinə də geniş dəstəyin olduğunu göstərib. Respondentlərin 58,7 faizi bu sahədəki fəaliyyəti "çox yaxşı", 29,5 faizi isə "əsasən yaxşı" qiymətləndirib. Bu rəqəmlər təhlükəsizlik məsələlərinin ictimaiyyət üçün prioritet olduğunun sübutudur. Beləliklə, dünyada və regionda davam edən hərbi-siyasi gərginliklər, qlobal terror təhdidləri və regional sabitliyə yönələn təzyiqlər fonunda Azərbaycanın milli təhlükəsizlik strategiyası və Prezidentin bu sahədəki liderliyi xalq tərəfindən adekvat şəkildə qiymətləndirilir.



**Sosial Tədqiqatlar Mərkəzinin department müdiri Əziz Əlibəyli** Azərbaycan xalqının böyük əksəriyyətinin ölkə başçısı Prezident İlham Əliyevin strateji kursunu yüksək qiymətləndirdiyini bildirib: "Diqqətlə fikir versək, burada əsas məqam heç şübhəsiz ondan ibarətdir ki, hazırda cəmiyyətin gündəmində olan və Prezident İlham Əliyevin apardığı siyasətin uğurlu nəticələrini özündə əks etdirən konkret istiqamətlər xarici siyasət, Böyük Qayıdış, bərpa-quruculuq və hərbi təhlükəsizlik sahələridir. Bu istiqamətlərin hər biri geniş ictimai dəstəyə malikdir və bu, Prezidentin düzgün və ardıcıl strateji xətt yürütməsi ilə bilavasitə bağlıdır. Əvvəlcə, cənab Prezidentin xarici siyasət sahəsindəki fəaliyyətinə nəzər salaq. Ölkə əhalisinin 80 faizdən çoxu Azərbaycan dövlətinin həyata keçirdiyi xarici siyasət kursunu dəstəkləyir. Rəqəmlər göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən xarici siyasət Azərbaycanın milli maraqlarını dəqiq və məqsədyönlü şəkildə təmin edir. Buraya Ermənistanla normallaşma prosesləri, sülh gündəliyinin təşviqi, Şimal və Cənub sərhədlərində sabitliyin qorunması, real müharibə təhlükələrinin neytrallaşdırılması və geosiyasi risklərə qarşı balanslı mövqe daxildir. Eyni zamanda, Qoşulmama Hərəkatındakı fəallıq, strateji müttəfiqlərlə hərbi-siyasi əməkdaşlıq da Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsinə səbəb olub.

İkinci önəmli istiqamət Böyük Qayıdış və bərpa-quruculuq siyasətidir ki, bu da milli inkişafın əsas strateji vəzifələrindən biri hesab olunur. Respondentlər Prezidentin bu sahədəki fəaliyyətini uğurlu hesab edib. Bu göstəricilər onu deməyə əsas verir ki, dövlət başçısı Azərbaycanın postmünaqişə dövründə yalnız əraziləri deyil, bütövlükdə milli identiteti və dövlətçilik irsini yenidən qurmaq xəttini uğurla icra edir. Qarabağ üzərindən start götürən quruculuq mərhələsi ölkənin yeni tarixi reallıqlar fonunda restart əldə etməsinə gətirib çıxarıb.

Nəhayət, hərbi quruculuq və milli təhlükəsizlik sahəsindəki fəaliyyət də ayrı-ayrılıqda yüksək qiymətləndirilən istiqamətlərdəndir. Burada söhbət təkcə sərhədlərin qorunmasından getmir, eyni zamanda, Sərhəd Qoşunları, Müdafiə Nazirliyi, Hərbi Dəniz Qüvvələri, hava məkanının və kiberməkanın müdafiəsi kimi strateji sahələrdə strukturlaşdırılmış və yüksək səviyyədə idarə olunan təhlükəsizlik arxitekturasından bəhs edilir. 44 günlük müharibədən sonra ordunun modernləşdirilməsi və keyfiyyətcə yeni mərhələyə keçməsi bu sahədəki uğurların əsas nümunəsidir. Nəticə etibarilə, bütün bu faktlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycan xalqının etimadını qazanmış, konkret nəticələr doğuran, strateji baxımdan düşünülmüş və ardıcıl şəkildə icra olunan dövlətçilik modelidir. Rəqəmlərlə ifadə olunan bu dəstək, əslində ölkənin siyasi sabitliyinin və davamlı inkişafının sosial bazasını təşkil edir".



**Mərkəzin sektor müdiri, politoloq Tural İsmayılov** qeyd edib ki, ölkə başçısının fəaliyyətinə ictimai münasibəti öyrənmək məqsədilə keçirilən rəy sorğusu ölkədə siyasi sabitliyin və dövlət başçısına inamın yüksək səviyyədə olduğunu nümayiş etdirir: "Prezident İlham Əliyevin Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması istiqamətindəki fəaliyyəti xalq tərəfindən böyük rəğbətlə qarşılanır. Bu proqram Qarabağın sosial-iqtisadi inkişafını sürətləndirərək regionun dünya miqyasında cəlbedici məkana çevrilməsinə töhfə verir. Hərbi quruculuq sahəsində atılan addımlar, xüsusilə Silahlı Qüvvələrin müasirləşdirilməsi və İkinci Qarabağ müharibəsindəki qələbə xalqın milli qürurunu gücləndirib. Prezidentin milli təhlükəsizlik strategiyası ölkənin suverenliyini və ərazi bütövlüyünü qorumaqda effektivliyini sübut etmişdir. Azərbaycan xalqı bu nailiyyətləri dövlət başçısının uzaqgörən siyasətinin nəticəsi kimi qiymətləndirir.

İqtisadi sabitlik və infrastruktur layihələrinin uğurla həyata keçirilməsi də ictimai dəstəyi artıran amillər sırasındadır. Prezident İlham Əliyevin beynəlxalq aləmdə Azərbaycanın mövqeyini möhkəmləndirməsi xalq tərəfindən yüksək qiymətləndirilir. Xüsusilə enerji diplomatiyası və regional əməkdaşlıq təşəbbüsləri ölkənin qlobal nüfuzunu artırmışdır. Rəy sorğusunun nəticələri göstərir ki, Azərbaycan vətəndaşları Prezidentin fəaliyyətini ölkənin davamlı inkişafı və rifahı üçün mühüm amil hesab edir. Bu dəstək cəmiyyətdə birlik və həmrəyliyin göstəricisidir. Azərbaycanın müasir tarixində qazanılan uğurlar xalqın dövlətə və onun liderinə olan etimadını daha da gücləndirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regional lider kimi mövqeyini möhkəmləndirməkdədir. Bu siyasət ölkəni gələcəkdə daha böyük nailiyyətlərə aparan yol kimi dəyərləndirilir. Ümumilikdə, rəy sorğusu Azərbaycanın sabit, firavan və qüdrətli dövlət kimi inkişaf yolunda Prezident İlham Əliyevin liderliyinə xalqın sarsılmaz dəstəyini təsdiqləyir".



**Qurumun sektor müdiri, politoloq İlyas Hüseynovun** fikrincə, Azərbaycan xalqının Prezidentə olan inamı və etimadı yüksək səviyyədədir: "Sosial Tədqiqatlar Mərkəzi mütəmadi olaraq Prezidentin fəaliyyətinə ictimai münasibəti öyrənir. Xüsusilə qeyd edilməlidir ki, respondentlərin böyük əksəriyyəti ölkə başçısının siyasətini dəstəkləyir və müxtəlif mövzular üzrə onlara təqdim olunan suallar əsasında yüksək göstəricilər qeydə alınmışdır. Ən çox diqqətçəkən məqamlardan biri "Böyük Qayıdış" proqramının icrasıdır. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma ictimaiyyət tərəfindən yüksək səviyyədə qiymətləndirilir və bu istiqamətdə görülən işlər doğrudan da nəzərəçarpacaq nəticələr verir. Digər mühüm istiqamətlər isə xarici siyasət, milli təhlükəsizlik və ölkəmizin beynəlxalq uğurlarıdır. Bu sahələrdə əldə edilən nailiyyətlər hər keçən gün daha da artır. Ayrı-ayrı beynəlxalq görüşlər, yüksək səviyyəli təmaslar, telefon danışığı formatında keçirilən dialoqlar və ikitərəfli, eləcə də çoxtərəfli müzakirələr göstərir ki, Azərbaycan postmüharibə reallıqları fonunda öz beynəlxalq mövqelərini möhkəmləndirməyə davam edir. Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının XVII Zirvə Toplantısının keçirilməsi, dünyanın nüfuzlu liderlərinin orada iştirakı, Azərbaycanın yeni geosiyasi reallıqlarını beynəlxalq ictimaiyyətə qəbul etdirməsi baxımından olduqca mühüm hadisədir. Bu, həm də ölkəmizin diplomatik qələbələrinin davamı kimi qiymətləndirilə bilər.

Azərbaycanla Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin formalaşması baxımından da bu kimi görüşlər əhəmiyyətlidir. Xüsusi vurğulanmalı məqamlardan biri də ondan ibarətdir ki, bu görüşlərin vasitəçilər olmadan, birbaşa formatda baş tutması Prezident İlham Əliyevin sülh quruculuğu və təşəbbüskarlıq vizyonunun real nəticəsi kimi qəbul edilə bilər. Çünki Prezident İlham Əliyev bir tərəfdən torpaqlarımızın xilaskarı, digər tərəfdən sülhün memarı kimi çıxış edir. Ümid edirik ki, yaxın gələcəkdə sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və Zəngəzur dəhlizinin açılması Azərbaycanın beynəlxalq arenadakı uğurlarına yeni səhifələr əlavə edəcək. Ümumilikdə isə Azərbaycan xalqının Prezidentə olan inamı və etimadı yüksək səviyyədədir. Xalq-iqtidar birliyi, milli həmrəylik və strateji vəhdət dəmir yumruğun əsas dayağını təşkil edir".

Azərbaycan cəmiyyəti Prezident İlham Əliyevin siyasi kursunu ardıcıl şəkildə dəstəkləyir və onun strateji qərarlarını milli maraqların qətiyyətli müdafiəsi kimi dəyərləndirir. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin miqyası, hərbi qüdrətin artırılması və milli təhlükəsizliyin institusional əsasda təmin olunması Prezidentin ictimai legitimliyini və dövlət idarəçiliyində sabitliyini daha da gücləndirir. Bu reallıqlar sonuncu seçki nəticələrində də aydın şəkildə öz əksini tapdı. Ötən il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində cənab İlham Əliyev seçicilərin 92,12 faizinin səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bu, xalq-iqtidar birliyinin, milli iradənin və strateji liderliyə olan dərin etimadın təzahürüdür. Rəy sorğusunun nəticələri də bu etimadın gündəlik siyasi qərarların və uzunmüddətli inkişaf strategiyalarının cəmiyyət tərəfindən təsdiqləndiyini nümayiş etdirir. Prezident İlham Əliyevin liderliyi gələcəyə doğru inamlı və möhkəm addımların təminatçısı kimi qəbul olunur.

**Tacir SADIQOV,**
**"Respublika".**

Respublika .- 2025.- 12 iyul (№ 141).- S.1;15.